Azərbaycanın xarici siyasəti açıq və birmənalıdır

Prezident İlham Əliyevin Yunanıstanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Nikolaos Piperiqkosun etimadnaməsini qəbul edərkən səsləndirdiyi fikirlər respublikamızda və regionda böyük maraqla dinlənildi və böyük əks-sədaya səbəb oldu. Əminik ki, Yunanıstan siyasətçiləri, ekspertləri və mətbuatı da bu məsələyə öz münasibətlərini bildirəcəklər. Çünki İlham Əliyev xeyli müddət yüksək səviyyədə olmuş Azərbaycan – Yunanıstan əməkdaşlığının yenə də əvvəlki məcraya yönəldilməsi üçün əlindən gələni etdi. Dövlət başçımız münasibətlərdəki qaranlıq məqamların hamısının səbəblərini ortaya qoymaqla, yeni perspektivlərə, müsbət tendensiyalara hazır olduğumuzu bildirdi.

Yeri gəlmişkən, mən bu görüş haqqında hazırlanmış televiziya materialına baxarkən dövlət başçımızın iyulun 16-da Ceyhun Bayramovu Xarici İşlər naziri təyin olunması ilə əlaqədar videoformatda qəbulu zamanı dediyi filkirləri xatırladım. Prezident həmin gün xarici siyasətimizin istiqamətləri haqqında danışarkən demişdi: "Hesab edirəm ki, kompromis üçün yer var. Ancaq gərək xoş niyyət və qarşılıqlı iradə olsun". Bəli, Azərbaycan Prezidentinin Ermənistan istisna olmaqla, bütün dövlətlərlə əməkdaşlıq prosesində xoş niyyəti və açıq, mərdanə iradəsi vardır.

Amma... Dövlət başçımız yeni Xarici İşlər nazirimizə xatırlatmışdı ki, biz bütün ölkələrlə normal dostluq və tərəfdaşlıq münasibətlərinin formalaşmasında əməli addımlar atırıq. Lakin, bu, o demək deyil ki, öz ölkəmizin və xalqımızın maraqları kənarda qalsın. Yunanıstan səfirinin mövcud həqiqətləri, məhz, dövlət başçımızın dilindən eşitməsinin əsas səbəbi də elə ölkəmizin və xalqımızın maraqlarına xidmət edirdi.

Azərbaycan Prezidentinin Avropanın diplomatiya təhsili verən ən məşhur universitetlərindən birinin məzunu olduğunu Yunanıstan siyasətçiləri də daxil olmaqla hamı bilir. Hətta, Avropa diplomatları İlham Əliyevi qitənin ən dərin potensiala malik diplomatlarından biri kimi qiymətləndirirlər. Yəni Yunanıstan səfiri ilə görüşdəki çıxışın həddən artıq açıq və kəskin olması təsadüfi deyildi. Prezident sadəcə bu qədim Avropa ölkəsi ilə münasibətlərdə yaranmış düyünü açmaq istəyirdi. Çünki səfir Nikolaos Piperiqkos ilk məqamdaca demişdi ki, Yunanıstan hökumətinin Azərbaycanla qarşılıqlı maraq kəsb edən bütün sahələrdə əməkdaşlığı genişləndirməklə bağlı güclü istəkləri var. Prezident İlham Əliyev isə çalışdı ki, öncə həmin istəklərin reallaşmasına mane ola biləcək səbəblər aradan qaldırılsın.

Prezident haqlı olaraq narahatlığını dilə gətirdi ki, son bir neçə ildə aramızda çox aşağı səviyyədə əməkdaşlıq illəri olub. Əvvəlki vaxtlarda bizim daha fəal təmaslarımız olub: "Mən sizin ölkənizə rəsmi səfər etmişəm, Yunanıstanın iki prezidenti Azərbaycanda rəsmi səfərdə olub, Baş nazir səfərdə olub. Lakin Yunanıstanın əvvəlki hökuməti hakimiyyətə gələndən sonra bu təmaslar dayanıb və bu, Yunanıstan hökumətinin təşəbbüsü olub. Beləliklə, hazırda bizim faktiki olaraq aktiv təmaslarımız, nümayəndə heyətlərinin mübadiləsi yoxdur. Bizim gələcəkdə əməkdaşlığımızı necə planlaşdırmaq barədə düşünməyə ehtiyacımız var".

Diqqət yetirdinizsə, dövlət başçımız təkcə nöqsanları sadalamır, həm də əməkdaşlığın gələcək perspektivləri barədə narahatlığını dilə gətirir. Yəni Azərbaycan lideri Yunanıstan dövlətindən, cəmiyyətindən deyil, müəyyən müddət ölkəyə rəhbərlik etmiş iqtidarın düşünülməmiş siyasətindən narazıdır: " Əməkdaşlığımıza mənfi təsir göstərən bir neçə məsələ olub. Onlardan biri Yunanıstanın qaz şirkəti "DESFA" ilə əlaqədardır. Deyə bilərəm ki, bizim enerji şirkətimiz SOCAR Yunanıstan hökumətinin müraciəti əsasında "DESFA"nı almaq üçün tenderə qoşuldu. SOCAR-ın tender prosedurunda iştirak etməsini Yunanıstanın sabiq Baş Naziri cənab Samaras şəxsən məndən xahiş etdi. Açıq tender proseduru nəticəsində SOCAR ən yaxşı təklifi etdi və "DESFA"ya sahib olmaq hüququnu qazandı. Bu, bizim Cənub Qaz Dəhlizinin tikintisi ilə bağlı planlarımız baxımından da mühüm əhəmiyyət kəsb edirdi".

Təxminən, 6 il bundan əvvəl – biz Azərbaycanla Avropa arasında bağlantı inşa etməyi, sadəcə olaraq, planlaşdırdığımız zaman rəsmi Bakı düşünürdü ki, əgər Azərbaycan Yunanıstanı qazla təchiz edəcəksə, bu qazı paylaşdıran şirkətə sahib olmaq da yaxşı olar. Üstəlik, Azərbaycan razılaşdırılmış qiymətin 10 faizini təşkil edən 40 milyon avro məbləğində avans ödənişi etmişdi və 4 il ərzində– 2014-cü ildən 2018-ci ilədək həmin vəsait Yunanıstan hökumətinin ixtiyarında olub. Prezidentin dediyi kimi, əfsuslar olsun ki, Yunanıstanın əvvəlki hökuməti SOCAR-ın bu hüququ itirməsi üçün hər şeyi etdi. Güman edirik ki, dövlət başçımızın bu xatırlatmasından sonra Yunanıstanın indiki iqtidarı köhnə iqtidarın səhvlərini aradan qaldırmaq üçün müvafiq addımlar atacaq.

Dövlət başçımızın Yunanıstan rəhbərliyinə çatdırmaq istədiyi ikinci məsələ isə daha yeni gündəliyi əhatə edirdi. Belə ki, əvvəlki məsələdə söhbət 6 il əvvəl baş vermiş səhvlərin aradan qaldırılmasından gedirdisə, növbəti məsələ həm də bu günü və gələcək illəri əhatə edirdi. Əvvəla, Azərbaycanın xarici siyasətinin ən mühüm prioriteti Ermənistan tərəfindən işğal edilmiş ərazilərin düşmən tapdağından təmizlənməsi, ərazi bütövlüyümüzün bərpasıdır. Yunanıstan isə işğalçı Etmənistanla hərtərəfli əməkdaşlıq edərək Azərbaycanın hüquqlarını tapdalayır. İkinci, hamının bildiyi kimi, qardaş Türkiyənin öz hüquqlarını qorumaq üçün atacağı bütün addımlarda Azərbaycan onun yanında olacaq. O zaman Yunanıstanın Azərbaycandan incik olmaması üçün bu gün bütün məsələlər tam açıqlığı ilə dilə gətirilməlidir və dövlət başçımız bunu etdi.

Prezident xatırlatdı: " Məndən eşitməyinizi istədiyim ikinci məsələ Ermənistan, Yunanıstan və Kipr arasında hərbi əməkdaşlıqla bağlı narahatlığımızdır. Bildiyiniz kimi, Ermənistan bizim ərazilərimizi işğal etmiş ölkədir. Xocalıda soyqırımı aktı törədib, bir milyon azərbaycanlını evlərindən didərgin salıb, tarixi, mədəni, dini abidələrimizi dağıdıb, işğal edilmiş ərazilərdə etnik təmizləmə siyasəti həyata keçirib, beynəlxalq hüququ pozur, BMT Təhlükəsizlik Şurasının və başqa təşkilatların qətnamələrinə əməl etmir… Hesab edirəm ki, bunun bizi narahat edən məsələ olduğunu məndən eşitməyiniz yaxşıdır və bunun nəyə görə baş verdiyini mən izah etdim. Ermənistanın torpaqlarını işğal edən Azərbaycan deyil, Ermənistan Azərbaycanın ərazisini işğal edib. Bu da bütün beynəlxalq təşkilatların sənədlərində öz əksini tapıb".

Təbii ki, dövlət başçımızın Türkiyə və Yunanıstan arasında Şərqi Aralıq dənizi regionunda bu yaxınlarda baş verən gərginliklə bağlı söylədiyi fikirlər yunan diplomat üçün yeni məsələ deyildi. Yunanlar bu məsələni tam aydınlığı ilə bilirlər. Ancaq buna baxmayaraq, Prezident Azərbaycan dövlətinin və xalqımızın mövqeyini tam aydın şəkildə dilə gətirdi: "Türkiyə təkcə bizim dost və tərəfdaşımız yox, bizim üçün qardaş ölkədir. Biz heç bir tərəddüd etmədən Türkiyəni dəstəkləyirik və bütün hallarda dəstəkləyəcəyik. Biz eyni dəstəyi türk qardaşlarımızdan da görürük. Onlar Azərbaycanı bütün məsələlərdə dəstəkləyirlər və biz onları bütün məsələlərdə dəstəkləyirik, o cümlədən, Şərqi Aralıq dənizində kəşfiyyat məsələsi ilə bağlı. Mən istəyirəm ki, siz bizim mövqeyimizi biləsiniz. Bu mövqe mənim göstərişimlə artıq Azərbaycan hökuməti tərəfindən rəsmi açıqlanmışdır… Beləliklə, bütün məsələlərdə biz onların yanında olacağıq".

Dövlət başçımızın bu iradlarından sonra Yunanıstan diplomatının etiraf səsləndirməsi və nikbinlik ifadə etməsi tamamilə gözlənilən idi. Səfir etiraf etdi ki, bir neçə il bundan əvvəl əməkdaşlığımız yaxşı inkişaf etmişdir: "Lakin yeni hökumət sizinlə əlaqə yaratmaq üçün daha yaxşı yolları tapmaq məqsədilə zəruri olanı edəcəkdir. Həmçinin, qeyd etmək istəyirəm ki, bizim fikrimizcə, sizin ölkəniz və bizim ölkəmiz üçtərəfli və ikitərəfli əməkdaşlıq aparan çox maraqlı ölkələrdir. Sizdə bu təcrübə zəngindir, sizdə, hətta, üçtərəfli diplomatiyanın nümunəsi var".

Qoy olsun... Dövlət başçımız hesab edir ki, kompromis üçün yer var. Ancaq ölkəmizin və xalqımızın maraqlarının kənarda qalmaması şərti ilə.

İttifaq MİRZƏBƏYLİ,
"Xalq qəzeti"

Biz xarici siyasət prioritetlərimizi açıq şəkildə bəyan edirik və məqsədlərə çatmaq üçün ardıcıl siyasət aparırıq. Bütün ölkələrlə bərabərhüquqlu qarşılıqlı hörmət və etimad əsasında münasibətlərin qurulması bizim əsas prinsiplərimizdən biridir. Hesab edirəm ki, son illərdə Azərbaycan bu sahədə böyük uğurlar əldə edib... Bunu müxtəlif vaxtlarda Azərbaycana beynəlxalq aləm tərəfindən göstərilən dəstək əyani şəkildə sübut edir.

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti